**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında ?sasnamə ?də dəyişiklik edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN F ?RMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İcbari sığortalar haqqında ? Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında ? Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 6, maddə 542; 2013, 1, maddə 29, 2, maddə 117, 3, maddə 246, 8, maddə 909, 10, maddə 1155, 12, maddə 1514; 2014, 5, maddə 477, 9, maddə 1027) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında ?sasnamə ?yə aşağıdakı məzmunda 3.9.6-1-ci yarımbənd əlavə edilsin:

“3.9.6-1. yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin “İcbari sığortalar haqqında ? Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət edir; ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 dekabr 2014-cü il
423